**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**HƏMİDƏ FAZİL qızı QULİYEVA**

# MÜLKİ PROSESSUAL HÜQUQDA MÜDDƏTLƏR (NƏZƏRİ VƏ PRAKTİKİ PROBLEMLƏR)

**İxtisas: 5615.01 – "Mülki proses"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutunda (hazırda Hüquq və İnsan Haqları İnstitutunda) yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Hüquq üzrə elmlər doktoru M.A.MÖVSÜMOV** |
| **Rəsmi opponentlər:** | **Hüquq üzrə elmlər doktoru professor V.A.VASİLYEVA** |
| | **Hüquq üzrə elmlər doktoru Ş.İ.ƏLİYEV** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası** |

Dissertasiya işinin müdafiəsi "____" "____________" 2017-ci il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "____________" 2017-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat işinin aktuallığı.** Fəlsəfi kateqoriya kimi çıxış edən zaman bir-birini əvəz edən hadisələrin mövcudluğunun ardıcıllığını ifadə edir. Bu kateqoriya eyni zamanda hüquqda da mühüm rol oynamaqla hüquqi kateqoriyaya çevrilir. Zaman kateqoriyası digər hüquq sahələri kimi mülki prosessual hüquq üçün də mühüm əhəmiyyət kəsb edir. Mülki prosesin həyata keçirilməsi və proses iştirakçılarının hüquqlarının müdafiə edilməsi məhz bu kateqoriya ilə sıx surətdə bağlıdır. Ümumiyyətlə, mülki prosesdə prosessual müddətlər mülki məhkəmə icraatında hər bir işin düzgün həyata keçirilməsini təmin etməyə yönəldilmiş əsas hüquqi vasitələrdən biri kimi çıxış edir. Mülki məhkəmə icraatının həyata keçirilməsinin hüquqi vasitəsi kimi prosessual müddətlərin əhəmiyyəti aşağıdakılardan ibarətdir: birincisi, prosessual müddətlər mülki işin bütün hallarının obyektiv olaraq aşkara çıxarılmasına və onlara düzgün hüquqi qiymət verilməsinə imkan yaradır; ikincisi, mülki məhkəmə icraatında prosessual hərəkətlərin həyata keçirilməsinə imkan verir.

Mülki məhkəmə icraatında prosessual müddətlərin pozulması prosesin gedişində qəbul edilmiş qərarların ləğvinə, toplanmış materialların subutedici qüvvəsinin olmamasına səbəb olur. Mülki prosesdə müddətlər prosesdə iştirak edən şəxslərin fəaliyyətində formalaşan prosessual münasibətlərin tənzimlənməsi vasitəsi kimi tətbiq edilir. Buna görə də prosessual müddət hər hansı prosessual fəaliyyət və ya fəaliyyətlərin məcmusu ilə əlaqədar olur. Əksər hallarda isə müddətlərə əməl olunması tələbi fəaliyyətin özünün həyata keçirilməsi haqqında tələblə eyni vaxtda üst-üstə düşür. Prosessual müddətlər proses iştirakçılarının prosessual fəaliyyətinin tənzimlənməsində onların yerinə yetirdikləri rolu ilə müəyyən edilir. Bütövlükdə, qanunvericilikdə müəyyən müddətə əməl edilməsi haqqında tələb nəzərdə tutulduğu hallarda müvafiq hüquq normasının məqsədi bu və ya başqa fəaliyyətin vaxtında həyata keçirilməsini təmin etməkdən ibarət olur. İstənilən hüquqi normanın məzmunu konkret məqsədə nail olmaq üçün müəyyən edilir. Məhz həmin məqsədə nail olunmasında prosessual müddətlər institutu mühüm rol oynayır. Mülki məhkəmə icraatında müəyyən olunmuş müddətlərə əməl edilməsi mülki prosessual qanunvericiliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsinin, habelə bu sahədə aktual olan digər məsələlərin həllinin zəruri şərti kimi çıxış edir.

Müasir dövrdə respublikamızda siyasi, iqtisadi və sosial münasibətlər sahəsində inkişaf müşahidə olunur. Hüquqi tənzimetmənin mühüm vəzifələrindən biri kimi bazar iqtisadiyyatının səmərəli fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılması çıxış edir. Bu tələb yalnız qanunvericilik və



icra hakimiyyəti orqanlarına deyil, həmçinin tam həcmdə məhkəmə sisteminə də aiddir. Cəmiyyətdə formalaşmış olan ictimai münasibətlərin stabilliyi mülki və iqtisadi dövriyyənin subyektləri arasında obyektiv olaraq yaranan mübahisələrin operativ və səmərəli həll edilməsini tələb edir. Əksər hallarda məhkəmə mübahisələri kimi təzahür edən həmin mübahisələr ədalət mühakiməsini həyata keçirən məhkəmələr tərəfindən həll edilməklə qeyri-müəyyən vəziyyətlərə aydınlıq gətirirlər. Mülki prosessual qanunvericilikdə qanuni qüvvəyə minməmiş məhkəmə aktlarından yuxarı instansiya məhkəməsinə şikayət verilməsi üçün prosessual müddətlərin müəyyən edilməsi, həmin aktların qanuni qüvvəyə minməsindən sonra tərəflər arasında yaranan maddi-hüquqi münasibətlərin stabilliyinin mühüm şərti kimi çıxış edir. Göründüyü kimi, prosessual müddətlər institutu ədalət mühakiməsi qarşısında duran bir sıra vəzifələrin həllində olduqca mühüm rol oynayır.

1999-cu il 28 dekabr tarixdə Azərbaycan Respublikasının (bundan sonra-AR) yeni Mülki Prosessual Məcəlləsinin (bundan sonra-MPM) qəbul edilməsi mülki prosessual müddətlər institutunda əhəmiyyətli dəyişikliklər etdi. Bu, məhkəmə fəaliyyətinin operativliyi və keyfiyyətinin optimal nisbətinə nail olmaqla, prosessual müddətlərin müəyyən edilməsinin məqsəd və vəzifələrinin düzgün təyin edilməsini tələb edir. Yeni mülki prosessual qanunvericilik üzrə prosessual müddətlər institutunun məruz qaldığı dəyişikliklər problemin məhz bu cür həll edilməsinə əsaslanır. Müxtəlif kateqoriya işlərə baxılması və həll edilməsi ilə bağlı prosessual müddətlərin diferensiyasiyası tendensiyası mülki prosessual qanunvericiliyin prosessual müddətlərə dair müddəalarının gələcək inkişafının perspektiv istiqaməti kimi nəzərdən keçirilməlidir.

Bununla yanaşı, cəmiyyətin inkişafı və mülki prosessual qanunvericiliyin tətbiqi təcrübəsinin formalaşdığı hazırkı dövrdə mülki prosessual hüququn yeni və ənənəvi institutlarının səmərəli fəaliyyətinin təmin edilməsi üçün prosessual müddətlər institutunun təkmilləşdirilməsi zərurəti vardır.

Müasir dövrdə AR-in mülki prosessual hüquq elmində prosessual müddətlər institutunun yeni qanunvericilik və bununla bağlı formalaşmış olan məhkəmə təcrübəsi əsasında fundamental və kompleks şəkildə araşdırılmasına ciddi zərurət vardır. Bu sahədə konseptual xarakterli tədqiqatlar aparılmalı, həmin institutun sosial əhəmiyyəti, prosessual müddətlərin müəyyən edilməsinin məqsəd və vəzifələri, göstərilən məqsəd və vəzifələrə uyğun olaraq prosessual müddətlərin anlayışı, habelə müddətlərin praktiki əhəmiyyət kəsb edən təsnifat meyarları, onların hesablanması üsulları qüvvədə olan mülki prosessual qanunvericilik əsasında kompleks şəkildə tədqiqata cəlb olunmalıdır.

Beləliklə, hazırkı dövrdə mülki prosessual hüququn institutlarından biri olan prosessual müddətlər institutu ilə bağlı yaranmış hüquqi xarakterli

problemlər, bu məsələnin nəzəri və praktiki baxımdan aktual olduğunu göstərməklə onun kompleks şəkildə tədqiq edilməsini zəruri edir.

**Mövzunun işlənmə dərəcəsi.** Prosessual müddətlər institutu mülki prosessual hüququn ən mühüm institutlarından biri olsa da, nə sovet dövründə, nə də müstəqillik əldə etdikdən sonra respublikamızın hüquq doktrinasında həmin institut kompleks şəkildə elmi tədqiqata cəlb edilməmişdir. AR-də bütövlükdə prosessual müddətlər institutunun mahiyyəti və fəaliyyəti ilə bağlı ayrı-ayrı məsələlər, digər hüquq sahələri çərçivəsində müəyyən qədər təhlil edilsə də, bilavasitə mülki prosessual hüquq üzrə prosessual müddətlər institutu ilə bağlı məsələlərin sistemli və kompleks təhlilinə həsr edilmiş elmi tədqiqat əsərləri yazılmamışdır.

Respublikamızda hüquqşünas alimlər tərəfindən (M.A.Mövsümov, M.D.Dəmirçiyeva, Ş.İ.Əliyev, F.A.Cabbarlı, N.Y.Əsgərov) yazılmış dərsliklərdə mülki prosessual müddətlər institutunun bəzi aspektləri epizodik şəkildə tədqiq edilsə də, bu mövzunun hüquqi tənzimi problemi, keçmiş sovet və Rusiya Federasiyasının mütəxəssisləri tərəfindən araşdırılsa da, milli hüquq doktrinasında hələ də kompleks şəkildə tədqiq olunmamış qalır.

Bütövlükdə mülki prosessual müddətlər institutu ilə bağlı problemlər mülki prosessual hüquq elminin və mülki prosessual qanunvericiliyin inkişafının müxtəlif mərhələlərində postsovet ölkələri alimləri - A.A.Melnikov, A.L.Borovikovski, A.F.Kleynman, A.T.Bonner, A.X.Qolmsten, D.P.Azareviç, D.M.Çeçot, E.A.Nefedyev, İ.E.Enqelman, Q.P.Bujinskas, K.S.Yudelson, L.A.Qros, M.K.Treuşnikov, M.Q.Avdyukov, S.N.Abramov, Y.V.Vaskovski, Y.V.İsayeva, P.Y.Trubnikov, T.M.Yabloçkov, V.A.Vasilyeva, V.L.İsaçenko, V.V.Kalinin, V.V.Molçanov, V.V.Yarkov və b. tərəfindən kifayət qədər geniş tədqiq edilmişdir.

**Dissertasiya tədqiqatının obyektini** mülki prosessual hüquqda prosessual müddətlərin nəzəri və praktiki məsələləri təşkil edir.

**Dissertasiya tədqiqatının predmetini** mülki prosessual hüquqda prosessual müddətlərin tətbiqi ilə əlaqədar yaranan hüquqi problemlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi mülki prosessual hüquqda prosessual müddətlərin nəzəri və praktiki məsələlərinin təhlil edilməsindən, prosessual müddətlərlə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi üzrə təklif və tövsiyələrin irəli sürülməsindən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- mülki prosessual hüquqda prosessual müddətlərin anlayışını vermək;
- mülki prosessual hüquqda prosessual müddətlərin əhəmiyyətini müəyyən etmək;



- prosessual müddətlərin hüquqi faktlar sistemində yerini müəyyənləşdirmək;
- prosessual müddətlərin xarakterik xüsusiyyətlərini göstərmək;
- mülki prosessual hüquq elmində prosessual müddətlərin müxtəlif meyarlar üzrə təsnifatını aparmaq;
- mülki prosessual qanunvericiliyə əsasən prosessual müddətlərin müxtəlif növlərinin mahiyyətini izah etmək;
- prosessual müddətlərin hesablanmasının nəzəri və təcrübi məsələlərini təhlil etmək;
- prosessual müddətlərin başa çatmasının nəzəri və təcrübi əhəmiyyətini müəyyən etmək;
- prosessual müddətlərin bərpa edilməsi ilə bağlı nəzəri və təcrübi məsələləri araşdırmaq;
- prosessual müddətlərin uzadılmasının nəzəri və təcrübi aspektlərini öyrənmək;
- prosessual müddətlərin axımının dayandırılmasının nəzəri və təcrübi əhəmiyyətini müəyyən etmək;
- prosessual müddətlərin buraxılması və onun nəticələri ilə bağlı məsələləri araşdırmaq;
- ədalət mühakiməsinin həyata keçirilməsində prosessual müddətlərin rolunu aydınlaşdırmaq;
- prosessual müddətlərlə bağlı AR qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürmək.

**Tədqiqatın metodoloji əsasını** hüquq elmində hamılıqla qəbul olunan ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Dissertasiyada daha çox formal-məntiqi və sistemli analiz metodundan (prosessual müddətlərlə bağlı AR qanunvericiliyinin təhlilində), müqayisəli hüquq metodundan (prosessual müddətlərlə bağlı mövcud olmuş və AR-in qüvvədə olan qanunvericiliyinin müqayisə edilməsində) və tarixi metoddan (prosessual müddətlərlə bağlı qanunverciliyin və hüquq doktrinasının inkişaf xüsusiyyətlərinin müəyyən olunmasında) istifadə edilmişdir. Bundan başqa tədqiqat işində konkret-sosioloji və digər elmi metodlar da tətbiq edilmişdir.

**Tədqiqatın nəzəri əsası.** Dissertasiya işinin yazılmasında tədqiqat işinin mövzusu ilə bağlı tədqiqat aparmış azərbaycan, rus və digər xarici ölkə alimlərinin: A.F.Kleynmanın, B.C.Kərimlinin, D.İ.Meyerin, D.M.Çeçotun, İ.M.Rezniçenkonun, İ.V.Reşetnikovanın, K.Malışevin, Q.F.Şerşeneviçin, L.A.Qrosun, M.A.Mövsümovun, M.A.Qurviçin, M.D.Dəmirçiyevanın, M.D.Şarqorodskinin, N.A.Çeçinanın, O.A.Krasavçikovun, O.S.İoffenin, S.S.Alekseyevin, Ş.İ.Əliyev, V.A.Vasilyeva, V.A.Ryasentsevin,

V.M.Juykovun, V.N.Arqunovun, V.B.İsakovun, V.V.Yarkovun, Y.A.Nefedyevin, Y.A.Suxanovun və başqalarının əsərlərindən istifadə olunmuşdur.

**Tədqiqatın normativ əsasını** AR-in Konstitusiyası, AR-in MPM-i, qanunlar və digər normativ hüquqi aktlar təşkil edir. Dissertasiya konstitusiya hüququ, mülki prosessual hüquq, mülki hüquq və digər sahələrdə mövcud olan normativ hüquqi aktların, nəzəri ədəbiyyatların və məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdərilməsi əsasında yazılmışdır.

**Tədqiqatın elmi yeniliyi** onunla müəyyən olunur ki, dissertasiya işi AR-in mülki prosessual hüquq elmində prosessual müddətlərin nəzəri və praktiki məsələlərinin yeni mülki prosessual qanunvericilik əsasında kompleks şəkildə tədqiqinə həsr olunmuş monoqrafik xarakterli ilk elmi tədqiqat işidir.

Aparılmış tədqiqatlar nəticəsində mühüm nəzəri əhəmiyyətə malik olan və aktual məsələlərin yeni həlli qaydasını özündə ehtiva edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. Mülki prosessual hüquqda prosessual müddətlərə mülki prosessual hüquq və vəzifələrin yaranmasını, dəyişməsini və xitam olunmasını şərtləndirən "vaxt anı" və "zaman kəsiyi" kimi anlayışın verilməsi təklif edilir. Mülki prosessual müddətlər mülki prosessual hüquq münasibətlərinin hərəkətinin müvəqqəti, onların məzmununu təşkil edən subyektiv hüquq və vəzifələrin mövcudluğu və inkişafı formasıdır. Subyektiv hüquq və vəzifələr onların daşıyıcıları tərəfindən hər hansı hərəkətlərin edilməsi və yaxud bunlardan çəkindirilməsi imkanı və ya zərurətidir.

2. Mülki prosessual hüquq elminin inkişaf tarixinin müxtəlif mərhələlərində prosessual müddətlərə fərqli şəkildə əhəmiyyət verilmişdir. İlk dövrlərdə prosessual müddətlər institutuna yalnız məhkəmə icraatını tezləşdirən vasitə kimi deyil, həm də çəkişmə prosesində "maddi həqiqətə" nail olma şərtlərindən biri, habelə tərəflər arasında mövcud olan maddi hüquq münasibətlərinin sabitliyinin və son nəticədə mülki dövriyyənin stabilliyinin təmin edilməsi vasitəsi kimi baxılırdı. Prosessual müddətlər institutunun müəyyənedici əhəmiyyəti aşağıdakı qarşılıqlı əlaqəli iki əsas aspektdə – maddi-hüquqi və prosessual aspektlərdə özünü göstərir. Maddi-hüquqi aspekt prosessual qanunvericilikdə qanuni qüvvəyə minmiş məhkəmə aktına yenidən baxılması imkanını zaman etibarilə məhdudlaşdıran, bərpa edilə bilməyən müddətin müəyyən edilməsi vasitəsi ilə, tərəflər arasında mövcud olan maddi-hüquqi münasibətlərə sabitlik verilməsini və son nəticədə mülki dövriyyənin stabilliyinin təmin edilməsini nəzərdə tutur. Prosessual-hüquqi aspektin mahiyyəti prosessual münasibətlərin müəyyənliyinin, nizamlılığının və prosessual hərəkətlərin aparılmasında operativliyin təmin edilməsindən ibarətdir.



3. Prosessual müddətlər institutu ilə bağlı məhkəmə icraatının vəzifələrinin müəyyən edilməsi istiqamətində prosessual qanunvericilikdə istifadə olunan terminologiyanın dəqiqləşdirilməsi məqsədəmüvafiqdir. Mülki məhkəmə icraatının vəzifələrini təsbit edən MPM-in 2-ci maddəsində mülki işlərə vaxtında baxılması və həll edilməsi vəzifəsinin təsbit edilməməsi baxımdan, MPM-in 2-ci maddəsində "mülki işlərə vaxtında baxılması və həll edilməsi" mülki məhkəmə icraatının vəzifələrindən biri kimi nəzərdə tutulmalıdır.

4. Mülki prosessual hüquq üzrə müddətlər aşağıdakı meyarlara görə təsnif edilməlidir: barəsində prosessual müddətlər müəyyən (təyin) edilən vəzifəli və ya səlahiyyətli subyektlərdən və müvafiq subyektlər tərəfindən həmin müddətlərin ötürülməsinin (onlara əməl olunmamasının) hüquqi nəticələrinə görə; müəyyən edilmə üsuluna görə; hesablanma üsuluna görə; müəyyənlik dərəcəsinə görə.

5. Mülki prosessual hüquq elmində prosessual müddətlərin ötürülməsinin hüquqi nəticələri, onların bərpa olunması və uzadılması ilə bağlı müəyyənləşdirilən qaydalar reallıqda işdə iştirak edən şəxslər və prosesin digər iştirakçıları tərəfindən prosessual hərəkətlərin aparılması üçün qanunla müəyyən olunan və ya məhkəmə tərəfindən təyin edilən müddətlərə şamil olunur, lakin bu qaydalar məhkəmə tərəfindən prosessual hərəkətlərin aparılması üçün onlara ünvanlanan müddətlərə aid edilmir. Bu baxımdan MPM-nin "Prosessual müddətlərin buraxılmasının nəticələri" adlanan 130-cu maddəsinin "İşdə iştirak edən şəxslər tərəfindən prosessual müddətlərin buraxılmasının nəticələri" adlandırılması təklif olunur. Həmin maddənin birinci və üçüncü hissələrinin isə aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiqdir:

"130.1. Qanunla müəyyən edilmiş və ya məhkəmə tərəfindən təyin edilmiş müddət keçdikdə, işdə iştirak edən şəxslərin prosessual hərəkətlər etmək hüququ keçmiş olur".

"130.3. Prosessual müddətin bərpa olunması barədə vəsatət verilməmişsə, prosessual müddətlər keçdikdən sonra işdə iştirak edən şəxslər tərəfindən verilən şikayətlərə və sənədlərə baxılmır və onları verən şəxslərə qaytarılır".

MPM-nin "Prosessual müddətlərin uzadılması" adlanan 132-ci maddəsinin adının "İşdə iştirak edən şəxslər tərəfindən prosessual hərəkətlərin aparılması üçün məhkəmə tərəfindən təyin edilən prosessual müddətlərin uzadılması" kimi təsbit edilməsinin daha düzgün olması əsaslandırılır: Maddənin özünün isə bu redaksiyada verilməsi məqsədəmüvafiqdir: "İşdə iştirak edən şəxslər tərəfindən prosessual hərəkətlərin aparılması üçün məhkəmənin təyin etdiyi müddətlər maraqlı şəxslərin ərizəsi üzrə məhkəmə tərəfindən uzadıla bilər".

MPM-nin "Prosessual müddətlərin bərpası" adlanan 133-cü maddəsinin adının isə "İşdə iştirak edən şəxslər tərəfindən prosessual hərəkətlərin

aparılması üçün məhkəmə tərəfindən təyin edilən prosessual müddətlərin bərpası" kimi verilməsi təklif edilir.

6. İllərlə və ya aylarla hesablanan prosessual müddətin-vaxt dövrünün bitdiyi günün müəyyən edilməsi ilə bağlı məsələnin həlli (müddətin və onun axımının başlanmasına uyğun olaraq) iki üsulla: 1) normativ-hüquqi aktlara müvafiq düzəlişlər edilməsi ilə; 2) həmin normalarla bağlı Konstitusiya Məhkəməsi tərəfindən şərhlərin verilməsi ilə həyata keçirilir. Prosessual müddətin son ilinin və ya ayının müvafiq günü təqvim tarixinə əsasən ayın həmin günü ilə və ya müddətin müəyyən edildiyi hadisənin baş verdiyi gün ilə üst-üstə düşən gün kimi xarakterizə edilir. Prosessual müddətin son ilinin və ya ayının müvafiq günü, ayın tarixinə görə müddətin axımının başlanmasından əvvəlki günlə üst-üstə düşən tarix (gün) kimi göstərilir.

7. Mülki prosessual hüquqda prosessual müddətin buraxılması hüquqi fakt - nisbi hadisə kimi xarakterizə edilir və bu prosessual müddətlərin mülki prosessual hüquq üçün daha çox yaratdığı hüquqi nəticələr baxımından əhəmiyyət kəsb edir. Həmin hüquqi fakt səlahiyyətli və ya vəzifəli şəxsin üzrlü və ya üzrsüz səbəblərdən bu müddətin baş verdiyi (dəqiq təqvim tarixi və ya hökmən baş verməli olan hadisəni göstərməklə müəyyən olunan prosessual müddətlər üçün) və başa çatdığı (vaxt dövrləri ilə müəyyən olunan prosessual müddətlər üçün) zaman hərəkətsizlik göstərməsi nəticəsində təzahür edir və müvafiq hüquqi nəticələr doğurur.

8. Prosessual müddətlərin buraxılmasının hüquqi nəticələri müxtəlif meyarlar əsasında növlərə bölünür: şamil olunduğu subyektlərə görə və prosessual müddətin müəyyən prosessual hərəkəti yerinə yetirmək hüququnu və ya vəzifəsini zaman hədləri ilə məhdudlaşdırmasına görə. Bununla bağlı aşağıdakılar fərqləndirilir: 1) prosessual hərəkəti etmək hüququnun zaman hədlərini müəyyən edən prosessual müddətlərin buraxılmasının hüquqi nəticələri; 2) prosessual hərəkəti etmək vəzifəsinin zaman hədlərini müəyyən edən prosessual müddətlərə əməl edilməməsinin hüquqi nəticələri. İşdə iştirak edən şəxslər və prosesin iştirakçıları tərəfindən prosessual hərəkətlərin aparılması üçün prosessual müddətlərin (məhz belə prosessual müddətlərə onların birinci təsnifatı çərçivəsində müddətlərin bərpa edilməsi və uzadılması barədə qaydalar şamil olunur) bərpa edilməsi və uzadılması məsələlərini tənzim edən hüquq normalarının məcmusu əsasında həmin müddətlərin iki növə: qanuni və məhkəmə müddətlərinə bölünməsi dayanır.

9. Prosessual müddətlərin bərpa edilməsi ilə bağlı müddəaların mülki prosessual qanunla işdə iştirak edən şəxslər və digər proses iştirakçıları tərəfindən prosessual hərəkətlərin aparılması üçün nəzərdə tutulan müddətlərə şamil olunması məqsədəmüvafdir. Prosessual müddətlərin uzadılması barədə müddəalar işdə iştirak edən şəxslər və ya prosesin digər iştirakçıları tərəfindən prosessual hərəkətlərin aparılması üçün məhkəmə tərəfindən təyin edilən müddətlərə şamil olunmalıdır. Prosessual müddətlərin axımının dayandırılması, iş üzrə icraat dayandırıldığı halda belə, dayandırılma ərzində prosessual qanunla müəyyən olunan müddətin axımının müvəqqəti xitam edilməsi kimi başa düşülməlidir.



10. Ədalət mühakiməsinin keyfiyyətinə mənfi təsir göstərilməməsi üçün hesab edilir ki, ərizə və ya şikayətin hərəkətsiz qaldığı müddət məhkəmə tərəfindən ərizəyə baxılması ilə bağlı prosessual hərəkətlərin yerinə yetirilməsi, habelə işin məhkəmə baxışına hazırlanması üzrə hərəkətlərin aparılması müddətləri müəyyən edilərkən nəzərə alınmamalıdır. Belə müddətin axımı ərizənin və ya şikayətin məhkəmənin icraatına qəbul edilməsi haqqında qərardad qəbul edildiyi andan başlanır.

11. AR-in Avropa Şurasına tam hüquqlu üzv olması, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasını (bundan sonra - Avropa Konvensiyası) ratifikasiya etməsi, milli məhkəmə sistemində Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının nəzərə alınmasını tələb edir. Bu baxımdan mülki prosessual qanunvericiliyin Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinin və 35-ci maddəsinin 1-ci bəndinin müddəalarına uyğunlaşdırılmasının xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat zamanı əldə olunan əsas nəticələr və irəli sürülən müddəalar mülki prosessual hüquqda prosessual müddətlərlə bağlı formalaşmış elmi baxışların inkişafında, mövzu üzrə gələcəkdə aparılacaq elmi araşdırmalarda mühüm rol oynaya bilər. Tədqiqat işinin materiallarından mülki prosessual qanunvericiliyin və prosessual müddətlərin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsinin təkmilləşdirilməsində, habelə mülki prosessual hüquq fənninin tədris prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutunda (hazırda Hüquq və İnsan haqları İnstitutunda) geniş müzakirə edilmiş və əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiya mövzusu üzrə AR və Ukrayna Respublikasının nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə, o cümlədən beynəlxalq elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Tədqiqatın strukturu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Tədqiqatın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın quruluşu haqqında məlumat verilir.

Birinci fəsil **"Mülki prosessual hüquqda prosessual müddətlər institutunun nəzəri əsasları"** adlanmaqla iki yarımfəsli özündə birləşdirir.

**Birinci yarımfəsildə** mülki prosessual hüquqda prosessual müddətlərlə bağlı hüquq ədəbiyyatında mövcud olan yanaşmalar, AR qanunvericiliyi təhlil edilir. Qeyd olunur ki, fəlsəfi anlayış olan "vaxt" və "zaman" mülki prosessual hüquqda əhəmiyyətə malik olmaqla, həm də hüquqi kateqoriya kimi çıxış edir. Lakin vaxtın axımı prosesi öz-özlüyündə mülki prosessual hüquq üçün əhəmiyyət kəsb etmir. Yalnız müəyyən vaxt anının və ya dövrünün (kəsiyinin) mülki prosessual hüquq baxımdan mənası və rolu vardır. Belə ki, mülki prosessual qanunvericilik məhz həmin vaxt anının çatması ilə və ya vaxt dövrünün (kəsiyinin) bitməsi ilə müəyyən hüquqi nəticənin əmələ gəlməsini, yəni mülki-hüquq münasibətlərinin (mülki prosessual hüquq və vəzifələrin) yaranmasını, dəyişməsini və ya xitam olunmasını əlaqələndirir. Bu cür vaxt anı və ya dövrü (kəsiyi) mülki prosesdə müddət adlanır.

"Məhkəməyə müraciət edilməsi müddəti" və "iddia müddəti" anlayışlarının fərqləndirilməsi ilə bağlı hüquq ədəbiyyatındakı yanaşmaları müqayisə edən iddiaçının fikrincə, əmək qanunvericiliyində bir qayda olaraq mülki hüquq üçün xarakterik olan "iddia müddəti" öz əksini tapmır və yalnız fərdi mübahisələrin həll edilməsi üçün "məhkəməyə müraciət edilməsi müddəti" müəyyən edilir. Qeyd edilən problemə yeni yanaşma ilə bağlı aşağıdakı dəlilləri göstərmək olar: 1) əmək mübahisələri üzrə məhkəməyə müraciət edilməsi müddəti müstəqil anlayışdır və mülki işlər üzrə iddia müddəti anlayışına analogiya kimi nəzərdən keçirilə bilməz; 2) məhkəməyə müraciət edilməsi müddəti məhkəmə tərəfindən digər tərəfin bu barədə ərizəsi olmadan tətbiq edilməlidir və yalnız müddətin buraxılması və bunun üçün üzrlü səbəblərin olmaması faktı məhkəmə tərəfindən müəyyən edildikdə, iddia tələblərinin təmin olunmasından imtina üçün əsas kimi çıxış etməlidir.

İddiaçıya görə, qanunvericilik səviyyəsində iki müxtəlif termindən istifadə edilməsi qanunvericinin hüquq sahələrinin hüquqi tənzimetmə predmetindən asılı olaraq müddətin buraxılması qaydası və onun nəticələrini müxtəlif şəkildə tətbiq etmək niyyətini göstərir – mülki hüquq üçün iddia müddəti və əmək hüququ üçün məhkəməyə müraciət edilməsi müddəti.



AR-in Mülki Məcəlləsinin (bundan sonra-MM) 375.2-ci maddəsini təhlil edən iddiaçıya görə, hakim iddia ərizəsinin qəbul edilməsi mərhələsində müddətin buraxılması faktını formal şəkildə nəzərdən keçirib iddianı hərəkətsiz saxlamalıdır; müvafiq qərardadla ərizəçiyə onun buraxılmış müddətin bərpa edilməsi haqqında əsaslandırılmış vəsatət təqdim etməsini təklif etməlidir; ilkin məhkəmə iclasında bu vəsatətə baxmalı və müddətin buraxılması səbəblərinin üzrlü olub-olmamasını müəyyən etməli (digər tərəfin ərizəsindən asılı olmadan) və müvafiq (məsələn, iddiadan imtina barədə) qərar qəbul etməlidir. Əgər iddiaçı hakimin təklifinə əməl etməyərək müddətin bərpası haqqında vəsatət verməzsə, hakim iddianı bütün materiallarla birlikdə onu vermiş şəxsə qaytara bilər.

"İddia müddəti" və "məhkəməyə müraciət edilməsi müddəti" anlayışlarının hüquqi məzmunları arasında fərq, məhkəməyə müraciət edilməsi müddətinin üzrsüz səbəblərdən buraxılmasının nəticələrinin məhkəmə tərəfindən tətbiq edilməsi əsası kimi digər tərəfin ərizəsi barədə MPM-də və əmək hüququnun əsas mənbəyi olan Əmək Məcəlləsində (bundan sonra-ƏM) xüsusi göstərişin olmaması aşağıdakı nəticələrə gəlməyə imkan verir: 1) ƏM-də nəzərdə tutulan məhkəməyə müraciət edilməsi müddəti prosessual müddətdir; 2) əmək mübahisəsi üzrə iddiaçı tərəfindən üzrsüz səbəblərdən məhkəməyə müraciət edilməsi müddətinin buraxılması məhkəmə tərəfindən fərdi əmək mübahisəsinin mahiyyəti üzrə həll edilməsi imkanını istisna edir; 3) iddiaçı üçün belə mənfi nəticələrin tətbiq edilməsi üçün digər tərəfin ərizəsi tələb olunmur, müddətin buraxılması faktı və üzrlü səbəblərin olmaması sübutetmə predmetini təşkil edir, ilkin məhkəmə iclasında müəyyən olunur və məhkəməyə və prosesin digər iştirakçılarına məlum olur; 4) pozulmuş müddətin bərpası haqqında vəsatət olmadıqda hakim iddia ərizəsini geri qaytara bilər. Hesab edilir ki, belə yanaşma mülki işlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı çəkişmə və tərəflərin hüquq bərabərliyi ilə bağlı müddəalarla ziddiyyət təşkil etmir. Fərdi əmək mübahisələrinə baxılması və məhkəməyə müraciət edilməsi müddətinin buraxılmasının nəticələrinin tətbiqi məsələsinin həll edilməsi zamanı MM ilə analogiya tətbiq edilməməli və MPM-in normaları əsas götürülməlidir.

Mülki prosessual müddətlər mülki prosessual hüquq münasibətlərinin hərəkətinin müvəqqəti formasıdır, onların məzmununu təşkil edən subyektiv hüquq və vəzifələrin mövcudluğu və inkişafı formasıdır. Subyektiv hüquq və vəzifələr onların daşıyıcıları tərəfindən hər hansı hərəkətlərin edilməsi və yaxud bunlardan çəkindirilməsi imkanı və ya zərurətidir. Müddətin məzmununu ya hərəkət, ya da hadisə təşkil edir. Bu faktlarsız müddətlər mövcud olmur. Buna görə də hadisənin baş verdiyi və hərəkətin (hərəkətsizliyin) yerinə yetirildiyi

vaxt forması kimi çıxış edərək müddətlər yalnız hərəkətlər və hadisələrlə əlaqədə hüquqi nəticələr doğururlar. Məsələn, iddia müddətinin buraxılması iddianı rədd etmək üçün həmin müddətin sadəcə olaraq keçməsi olmayıb, o deməkdir ki, iddiaçı müəyyən edilmiş müddətdə özünün pozulmuş hüquqlarının müdafiəsi üçün cavabdehə qarşı iddia qaldırmamışdır. Beləliklə, mülki prosessual hüquqda prosessual müddətlərə aşağıdakı kimi anlayış vermək olar: mülki prosessual hüquqda prosessual müddətlər dedikdə, mülki prosessual hüquq və vəzifələrin yaranmasını, dəyişməsini və xitam olunmasını şərtləndirən vaxt anı və zaman kəsiyi başa düşülür.

**İkinci yarımfəsildə** prosessual müddətlərin hüquqi faktlar sistemində yeri məsələləri araşdırılır. Bununla bağlı hüquq ədəbiyyatında mövcud olan yanaşmalar və AR-in prosessual qanunvericiliyi tarixi metoddan istifadə edilməklə təhlil edilir. İddiaçının fikrincə, mövcud olan doktrinal yanaşmalar və qanunvericiliyin ümumiləşdirilməsi əsasında həmin dövrün prosessual hüquq doktrinasında prosessual müddətlər institutu ilə bağlı mövcud olan təsəvvürlər sistemini müxtəlif aspektlərdən ifadə etmək olar. Göstərilən institutun sosial əhəmiyyəti ondadır ki, prosessual hərəkətlərin yerinə yetirilməsinin müddətlə məhdudlaşdırılması həm xüsusi, həm də ictimai maraqlara xidmət edir. Prosessual müddətlər proses tərəflərinə hüquq münasibətlərində inamla iştirak etmək imkanı verir, qanunçuluğu möhkəmləndirir və insanlarda qanunçuluq hisslərini daha da inkişaf etdirir. Bu institut həm də tərəflər arasında mövcud olan maddi hüquq münasibətlərinin sabitliyinin və son nəticədə mülki dövriyyənin stabilliyinin təmin edilməsi vasitəsi kimi nəzərdən keçirilməlidir. Eyni zamanda bu instituta həm də çəkişmə prosesində «maddi həqiqətə» nail olunması, habelə işə mahiyyəti üzrə baxıb düzgün məhkəmə qərarının qəbul edilməsi şərtlərindən biri kimi əhəmiyyət verilməlidir.

İddiaçıya görə, işə baxılması və mahiyyəti üzrə həll edilməsi ilə əlaqədar prosessual müddətlərin əsassız şəkildə uzadılması, sübutların itməsi və ya onların keyfiyyətinin pisləşməsi səbəbindən məhkəmə səhvlərinin sayının artmasına gətirib çıxara bilər. İşə mahiyyəti üzrə baxılması üçün prosessual müddətlərin müəyyən olunması maddi həqiqətə və ya müəyyən müddətin keçməsi ilə itirilməyən sübutlar əsasında məhkəmə tərəfindən aşkar edilən faktiki hallara uyğun gələn məhkəmə qərarının qəbul edilməsini təmin etmək məqsədi daşıyır.

Eyni zamanda, tərəflərin öz tələb və ya etirazlarını əsaslandırmaq üçün sübutlar təqdim etmək imkanının prosessual müddətlərlə məhdudlaşdırılması məhkəmə tərəfindən işin bütün faktiki hallarının tam və hərtərəfli araşdırılmasına əsaslanan qərar qəbul edilməsini nəzərdə tutan obyektiv həqiqətə nail olunması ideyası ilə ziddiyyət təşkil edir. Qanunvericilikdə sübut etmə prosesinin zamanla bağlı hədlərini müəyyən edən prosessual müddətlər müəyyən edildiyindən məhkəmə yalnız tərəflərin həmin müddət ərzində təqdim edə bildikləri sübut əsasında qərar qəbul etməyə borcludur.



İddiaçı hesab edir ki, prosessual müddətlər institutu ilə bağlı məhkəmə icraatının vəzifələrini müəyyən etmək üçün prosessual qanunvericilikdə istifadə olunan terminologiya dəqiqləşdirilməlidir. Belə ki, mülki məhkəmə icraatının vəzifələrini təsbit edən MPM-in 2-ci maddəsində mülki işlərə vaxtında baxılması və həll edilməsi vəzifəsi təsbit edilməmişdir. Avropa Konvensiyasının 6-cı maddəsinin müvafiq olaraq MPM-in 2-ci maddədəsində “mülki işlərə vaxtında baxılması və həll edilməsi”nin mülki məhkəmə icraatının vəzifələrindən biri kimi nəzərdə tutulması məqsədəmüvafiq olardı.

Qeyd olunanların ümumiləşdirilməsi əsasında aşağıdakı nəticələrə gəlmək olar. Mülki prosessual hüquq elminin inkişaf tarixinin müxtəlif mərhələlərində prosessual müddətlərə fərqli şəkildə əhəmiyyət verilmişdir. İnqilaba qədərki prosessualist alimlər prosessual müddətlər institutuna mühüm sosial əhəmiyyət verməklə, onu yalnız məhkəmə icraatını tezləşdirən vasitə kimi deyil, həm də çəkişmə prosesində “maddi həqiqətə” nail olma şərtlərindən biri, habelə tərəflər arasında mövcud olan maddi hüquq münasibətlərinin sabitliyinin və son nəticədə mülki dövriyyənin stabilliyinin təmin edilməsi vasitəsi kimi nəzərdən keçirirdilər. Nəhayət, bu instituta həm də işə mahiyyəti üzrə baxılmaqla düzgün məhkəmə qərarının qəbul edilməsi şərtlərindən biri kimi əhəmiyyət verilirdi. Prosessual müddətlər institutu ilə bağlı formalaşmış yanaşma müasir dövrdə formalaşmış sosial-iqtisadi vəziyyətə, 90-cı illərin dinamik dəyişikliklərini əvəz edən ictimai münasibətlərin stabilləşməsi kursuna uyğun gəlmirdi.

Prosessual müddətlər institutunun müəyyənedici əhəmiyyəti aşağıdakı qarşılıqlı əlaqəli iki əsas aspektdə – maddi-hüquqi və prosessual-hüquqi aspektlərdə özünü göstərir. Maddi-hüquqi aspekt prosessual qanunvericilikdə qanuni qüvvəyə minmiş məhkəmə aktına yenidən baxılması imkanını zaman etibarilə məhdudlaşdıran, bərpa edilə bilməyən müddətin müəyyən edilməsi vasitəsi ilə tərəflər arasında mövcud olan maddi-hüquqi münasibətlərə sabitlik verilməsini və son nəticədə mülki dövriyyənin stabilliyinin təmin edilməsini nəzərdə tutur. Prosessual-hüquqi aspektin mahiyyəti prosessual münasibətlərin müəyyənliyinin, nizamlılığının və prosessual hərəkətlərin aparılmasında operativliyin təmin edilməsindən ibarətdir.

**“Prosessual müddətlərin təsnifatı”** adlanan ikinci fəsil iki yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** mülki prosessual hüquq elmində prosessual müddətlərin təsnifatının meyarlarından bəhs edilir. İddiaçıya görə, hər hansı

bir hüquqi kateqoriyanın təsnifatı düzgün aparılmaqla məcmu halında aşağıdakı tələblərə cavab verməlidir: birincisi, öz meyarı (meyarları) baxımından dəyişməz olmalıdır; ikincisi, qəti olmalıdır; üçüncüsü, onun elementləri bir-birini qarşılıqlı surətdə istisna etməlidir; dördüncüsü, təsnifatın aparılması prosesi fasiləsiz olmalıdır. Məntiqi əməliyyat kimi təsnifatın mahiyyəti hadisə və predmetlərin müvafiq meyarlar (bölgünün əsasları) əsasında qruplar (siniflər) üzrə bölgüsündən ibarətdir. Burada hər bir sinfin öz daimi, müəyyən yeri vardır. Təsnifatın məqsədini gerçəkliyin hadisə və predmetləri haqqında biliklərin sistemləşdirilməsi təşkil edir ki, bunun da idraki əhəmiyyəti hadisə və predmetlərin sonsuz sayda fərqli təzahür formalarını müəyyən sistemdə nəzərdən keçirməyə imkan verməsindədir. Bununla yanaşı, müvafiq məntiqi əməliyyatın nəticəsinin özünü də təsnifat adlandırmaq olar.

Qeyd edilir ki, təsnifat bütün predmetləri bir-birindən ciddi surətdə ayrılan qruplara bölməklə, onları hərəkətsiz edir. Bununla belə, gerçəkliyin predmetləri hərəkətsiz olmamaqla bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Bu da belə bir fikir söyləməyə əsas verir ki, bütün təsnifatlar nisbi xarakter daşıyır. Təbiətin və ictimai həyatın bir çox hadisələri birmənalı şəkildə hər hansı müəyyən qrupa daxil edilə bilməz. Bundan başqa, biliklərin inkişafı ilə təsnifat, bir qayda olaraq, dəyişir, tamamlanır, bəzən yenisi, daha dəqiqi ilə əvəz olunur. Buna görə də heç bir təsnifata mükəmməl təsnifat kimi yanaşmaq olmaz, həm fasiləsiz olaraq dəyişən və inkişaf edən gerçəkliyin özünün, həm də onu əks etdirən biliklərin dialektik təbiətini nəzərə almaq lazımdır. Bu baxımdan mülki prosessual qanunvericilikdə prosessual müddətlərin hansı növlərinin təsbit olunmasını nəzərdən keçirmək, mülki prosessual hüquq elmində prosessual müddətlərin hansı əsaslarla növlərə bölünməsini müəyyən etmək, belə təsnifatların nəzəri və praktiki əhəmiyyətini aydınlaşdırmaq və mülki prosessual hüquq elminin və eyniadlı qanunvericilik sahəsinin hazırkı inkişaf mərhələsində həmin təsnifatlardan hansılarının öz aktuallığını hələ də saxladığını aşkara çıxarmaq olar.

Təsnifat meyarları ilə bağlı doktrinalar yanaşmaların və qanunvericiliyin inkişafı üzrə təhlil aparan iddiaçının fikrincə, müxtəlif dövrlərdə mülki prosessual hüquq elmində prosessual müddətlərin aşağıdakı əsaslara görə təsnifatı aparılmışdır: təyin edilməsi əsasına görə; müddət təyin edən subyektlərə görə; barəsində müddət təyin edilən subyektlərə görə; müddətlərin buraxılmasının (onlara əməl olunmamasının) hüquqi nəticələrinə görə; hüquqi qüvvəsinə görə; müəyyən (təyin) edilmə məqsədinə görə.

Qeyd olunur ki, AR müstəqilliyini qazandıqdan sonra inteqrasiya prosesinə qoşulması müstəvisində mülki prosessual hüququn digər dövlətlərin mülki prosessual hüququ ilə müqayisəli təhlil edilməsi xüsusi önəm



daşıyır. İddiaçının fikrincə, xarici və beynəlxalq məhkəmələrin təcrübəsinin öyrənilməsi mülki prosessual hüquq elmi üçün xüsusi əhəmiyyətlidir.

**İkinci yarımfəsildə** mülki prosessual qanunvericiliyə əsasən prosessual müddətlərin növlərindən bəhs edilir. Burada müəllif hüquq ədəbiyyatında olan yanaşmaları və AR-in mövcud qanunvericiliyini təhlil edir.

AR-in qüvvədə olan mülki prosessual qanunvericiliyinə müvafiq olaraq prosessual müddətlərin məhkəmə, işdə iştirak edən şəxslər, eləcə də prosesin digər iştirakçıları üçün müəyyən edildiyini qeyd edən iddiaçının fikrincə, mülki prosessual hüquq elmi çərçivəsində aparılan tədqiqatların nəticələrini və məntiq elmində təsnifat kimi məntiqi əməliyyatın aparılmasına dair irəli sürülən tələbləri nəzərə almaqla mülki prosessual hüquq üzrə müddətlərin aşağıdakı növlərini fərqləndirmək olar:

I. Barəsində prosessual müddətlər müəyyən (təyin) edilən vəzifəli və ya səlahiyyətli subyektlərdən və müvafiq subyektlər tərəfindən həmin müddətlərin ötürülməsinin (onlara əməl olunmamasının) hüquqi nəticələrindən asılı olaraq aşağıdakılar fərqləndirilir: 1) məhkəmə tərəfindən prosessual hərəkətlərin aparılması üçün prosessual müddətlər; 2) işdə iştirak edən şəxslər və prosesin digər iştirakçıları tərəfindən prosessual hərəkətlərin aparılması üçün prosessual müddətlər. Bu təsnifat çərçivəsində prosessual müddətlərin ikinci növü müəyyən edilmə əsasına və həmin müddətlərin buraxılmasının hüquqi nəticələrinə görə aşağıdakı yarımnövlərə bölünür: 1) qanunla müəyyən edilən və ya qanuni müddətlər; 2) məhkəmə tərəfindən təyin edilən müddətlər – məhkəmə müddətləri.

Bu təsnifatın nəzəri və praktiki əhəmiyyəti ondan ibarətdir ki, o, vəzifəli və ya səlahiyyətli subyektə müvafiq prosessual müddəti göstərir, prosessual müddətlərin ötürülməsinin hüquqi nəticələrinin xarakterini aydınlaşdırmağa və belə nəticələrin şamil olunacağı şəxslərin dairəsini müəyyən etməyə imkan verir.

Hesab edilir ki, MPM-nin “Prosessual müddətlərin buraxılmasının nəticələri” adlanan 130-cu maddəsinin adı dəyişdirilərək “İşdə iştirak edən şəxslər tərəfindən prosessual müddətlərin buraxılmasının nəticələri” adlandırılması məqsədəuyğundur. Həmçinin, bu maddənin birinci və üçüncü hissələri aşağıdakı redaksiyada verilməsi təklif olunur:

“130.1. Qanunla müəyyən edilmiş və ya məhkəmə tərəfindən təyin edilmiş müddət keçdikdə, işdə iştirak edən şəxslərin prosessual hərəkətləri etmək hüququ keçmiş olur”.

“130.3. Prosessual müddətin bərpa olunması barədə vəsatət verilməmişsə, prosessual müddətlər keçdikdən sonra işdə iştirak edən şəxslər tərəfindən verilən şikayətlərə və sənədlərə baxılmır və onları verən şəxslərə qaytarılır”.

Eyni zamanda 132-ci maddənin adının dəyişdirilərək “İşdə iştirak edən şəxslər tərəfindən prosessual hərəkətlərin aparılması üçün məhkəmə tərəfindən təyin edilən prosessual müddətlərin uzadılması”, 133-cü maddənin isə “İşdə iştirak edən şəxslər tərəfindən prosessual hərəkətlərin aparılması üçün məhkəmə tərəfindən təyin edilən prosessual müddətlərin bərpası” adlandırılmasının məqsədəuyğun olması qeyd olunur. 132-ci maddənin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir:

“İşdə iştirak edən şəxslər tərəfindən prosessual hərəkətlərin aparılması üçün məhkəmənin təyin etdiyi müddətlər maraqlı şəxslərin ərizəsi ilə məhkəmə tərəfindən uzadıla bilər”.

II. Müəyyən edilmə üsuluna görə prosessual müddətlərin aşağıdakı iki növünü fərqləndirmək olar: birincisi, zaman anı ilə müəyyən olunan müddətlər. Bu da öz növbəsində aşağıdakı yarımnövlərə bölünür: a) tarixlə və ya dəqiq təqvim tarixi ilə müəyyən olunan müddətlər; b) hökmən baş verməli olan hadisəni göstərməklə müəyyən olunan müddətlər; ikincisi, hərəkətin ediləbiləcəyi vaxt dövrləri ilə müəyyən olunan müddətlər. Bu təsnifat çərçivəsində prosessual müddətlərin növlərə bölünməsi mahiyyətcə “zaman” və “müddət” anlayışlarının qarşılıqlı nisbətini özündə əks etdirir; prosessual müddətləri maksimum dəqiqliklə müəyyən etməyə (onun dəqiq təqvim tarixi və ya mütləq baş verməli olan hadisəni göstərməklə müəyyən olunması) və zaman dövrləri ilə hesablanan prosessual müddətlərin hədlərini aydınlaşdırmağa və deməli, onları düzgün hesablamağa və əməl etməyə imkan verir.

III. Hesablanma üsuluna görə prosessual müddətlər iki növə bölünür. Birincisi, vaxt dövrləri aşağıdakılarla hesablanır: a) illərlə; b) aylarla; c) günlərlə; ç) saatlarla. İkincisi, zaman anı aşağıdakılarla müəyyən edilir: a) dəqiq təqvim tarixi ilə; b) hökmən baş verməli olan hadisəni göstərməklə. Bu təsnifatın əhəmiyyəti ondan ibarətdir ki, o, prosessual müddətlərin müəyyən olunması zamanı müddətlərin hesablanmasının müxtəlif üsullarını daha dəqiq əks etdirməyə, sonuncuları qanunauyğun hesablamağa, habelə “vaxt” və “müddət” anlayışlarının məzmun fərqini nəzərə almağa imkan verir.

IV. Müəyyənlik dərəcəsi meyarına görə prosessual müddətlərin aşağıdakı kimi təsnifatını aparmaq olar: 1) mütləq müəyyən müddətlər; 2) nisbi müəyyən müddətlər. Göstərilən təsnifatın nəzəri və praktiki əhəmiyyəti ondan ibarətdir ki, mülki proses üzrə müddətlərin belə meyarlar üzrə təsnifləşdirilməsi onların dəqiq şəkildə hesablanması mexanizmini formalaşdırmağa imkan verir. Səlahiyyətli subyektlər üçün müvafiq hüquqi nəticələrin əmələ gəlməsi həmin mexanizmin fəaliyyətindən birbaşa asılıdır.



Üçüncü fəsil **“Prosessual müddətlərin hesablanması, müddətlərin buraxılmasının və bərpasının nəzəri və praktiki aspektləri”** adlanır və dörd yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** prosessual müddətlərin hesablanması və onların axımının başa çatması məsələləri təhlil edilir. Qeyd olunur ki, məhkəmə icraatı müddətlərinin hesablanması qaydasının təsbit edilməsi ilə bağlı göstərmək lazımdır ki, mülki işlər yazılı müraciətin ədalət mühakiməsi orqanı tərəfindən qəbul edildiyi andan etibarən həmin kateqoriya işlər üçün qanunla müəyyən olunmuş müddətdə həll edilməlidir. Ərizənin qəbul edilməsi prosedurası müddətlərin nəzərə alınmasının vahid modeli hesabına sadələşdirilir.

Mülki prosessual hüquqda prosessual müddətlərin hesablanması qaydaları, bilavasitə əvvəlki paraqrafda təklif olunan üçüncü təsnifat çərçivəsində fərqləndirilən prosessual müddətlərin növləri ilə - vaxt dövrü və vaxt anı ilə müəyyən olunan prosessual müddətlərlə bağlıdır.

Tədqiq olunan məsələ baxımından vaxt dövrü ilə müəyyən olunan prosessual müddətlərin hesablanması qaydası mühüm əhəmiyyət kəsb edir. Çünki həmin prosessual müddətlər uzanan xarakter daşıdığından məhz bu halda belə hesablanmadan söhbət gedə bilər. Əksinə vaxt anı ilə müəyyən olunan prosessual müddətlərin hesablanması əhəmiyyətli dərəcədə sadədir. Belə ki, dəqiq təqvim tarixi ilə müəyyən olunan prosessual müddətlər məhz həmin tarixlə (günlərlə) hesablanır. Konkret gün (son nəticədə məlum tarix) hökmən baş verməli olan hadisə göstərilməklə dəqiq təqvim tarixi ilə müəyyən olunan prosessual müddətlərin hesablanması üçün də əhəmiyyət kəsb edir. Vaxt dövrü ilə müəyyən olunan prosessual müddətlərin hesablanması daha mürəkkəb xarakter daşıyır. AR-in mülki prosessual qanunvericiliyinə görə prosessual müddətlərin axımı: a) illərlə; b) aylada; c) günlərlə hesablanır (MPM, m.128).

İllərlə və ya aylarla hesablanan prosessual müddətin – vaxt dövrünün bitdiyi günün müəyyən edilməsi ilə bağlı məsələnin həllinin (müddətin və onun axımı nın başlanmasına uyğun olaraq) iki üsulunu göstərmək olar: 1) normativ hüquqi aktlara müvafiq düzəlişlər edilməsi; 2) həmin normalarla bağlı Konstitusiya Məhkəməsi tərəfindən şərhlərin verilməsi.

Qeyd olunur ki, təcrübədə, bir qayda olaraq, illərlə və ya aylarla müəyyən olunan prosessual müddətlərin – vaxt dövrlərinin hesablanması ilə bağlı çətinliklər yaranır. Çünki məhz həmin müddətlərin hesablanmasına münasibətdə qanun “müvafiq gün” ifadəsindən istifadə edir, lakin məhz hansı günün - müddətin və ya onun axımının başlandığı günün “müvafiq gün”ə uyğun olması dəqiqləşdirilmir. Buna görə də, illərlə və ya aylarla müəyyən olunan prosessual müddətlərin - vaxt dövrlərinin bitməsi ilə bağlı

normaların düzgün şərh edilməsi və bu sahədə mövcud qüsurların aradan qaldırılması zərurəti yaranır.

Qanunverici tərəfindən prosessual müddətin-vaxt dövrünün axımının başlama anının belə müəyyən edilməsi düzgündürmü? Aşağıda göstərilən səbəbə görə bu suala cavab olduqca mühüm əhəmiyyət kəsb edir: prosessual müddətin – vaxt dövrünün axımının bu və ya digər formada müəyyən edilməsindən onun axımının başa çatmasının təyin edilməsi də asılıdır. Bu isə öz növbəsində işdə iştirak edən şəxslər və ya digər proses iştirakçıları tərəfindən həmin müddətin buraxılması faktının təsdiq edilməsi və bunun nəticələrinin qəbul (tətbiq) edilməsi üçün olduqca zəruridir.

İddiaçının fikrincə, prosessual müddətin son ilinin və ya ayının müvafiq günü dedikdə, təqvim tarixinə əsasən ayın həmin günü ilə və ya müddətin müəyyən edildiyi hadisənin baş verdiyi gün ilə üst-üstə düşən gün başa düşülməlidir. Yaxud prosessual müddətin son ilinin və ya ayının müvafiq günü dedikdə, ayın tarixinə görə müddətin axımının başlanmasından əvvəlki günlə üst-üstə düşən tarix (gün) başa düşülməlidir. Birinci variantda illərlə və ya aylarla hesablanan prosessual müddətin - vaxt dövrünün bitməsi birbaşa onun başlanğıcı olan günlə, ikinci variantda isə yenə də həmin günlə, lakin həmin müddətin axımının başlanğıcı vasitəsilə əlaqələndirilir. Bu zaman birinci variantı daha məqbul hesab etmək olar.

**İkinci yarımfəsildə** prosessual müddətin buraxılması və onun nəticələri təhlil edilir. Qeyd olunur ki, mülki prosessual hüquqda prosessual müddətin buraxılması hüquqi fakt-nisbi hadisə kimi çıxış edir. Göstərilən hüquqi fakt səlahiyyətli və ya vəzifəli şəxsin üzrlü və ya üzrsüz səbəblərdən bu müddətin baş verdiyi (dəqiq təqvim tarixi və ya hökmən baş verməli olan hadisəni göstərməklə müəyyən olunan prosessual müddətlər üçün) və başa çatdığı (vaxt dövrləri ilə müəyyən olunan prosessual müddətlər üçün) zaman hərəkətsizlik göstərməsi nəticəsində təzahür edir və müvafiq hüquqi nəticələr doğurur.

Prosessual müddətlərin buraxılmasının hüquqi nəticələri aşağıdakı meyarlar əsasında növlərə bölünə bilər: 1) şamil olunduğu subyektlərə görə; 2) prosessual müddətin müəyyən prosessual hərəkəti yerinə yetirmək hüququnu və ya vəzifəsini zaman hədləri ilə məhdudlaşdırmasına görə.

Bununla bağlı aşağıdakılar fərqləndirilir: *birincisi,* prosessual hərəkəti etmək hüququnun zaman hədlərini müəyyən edən prosessual müddətlərin buraxılmasının hüquqi nəticələri. Bu hüququn subyektləri kimi aşağıdakılar çıxış edir: 1) məhkəmə. Hakimlərin müvafiq prosessual hərəkətləri etmək hüququnun zaman hədlərini müəyyən edən normalara nadir hallarda rast gəlinir. Məsələn, MPM-in 162.3-cü maddəsinə görə iddia rədd edildikdə, məhkəmənin qəbul etdiyi iddianı təmin etmə tədbirləri qətnamə qanuni



qüvvəyə minənə qədər saxlanılır. Lakin məhkəmə qətnamə ilə eyni zamanda və ya qətnamə çıxarıldıqdan sonra, iddianın təmin olunmasını ləğv etmək haqqında qərardad çıxara bilər.

2) işdə iştirak edən şəxslər. Məsələn, MPM-in 184.4-cü maddəsində göstərilir ki, işə baxılması ilə əlaqədar olan məsələlərə dair işdə iştirak edən şəxslərin vəsatətləri işdə iştirak edən digər şəxslərin fikirləri dinlənildikdən sonra məhkəmə qərardadları ilə həll olunur. Yaxud, işə mahiyyəti üzrə baxılmasının qurtardığı elan edilənədək işdə iştirak edən şəxslər tərəfindən onlara məlum olan hallar və sübutlar təqdim olunmamışsa, işə mahiyyəti üzrə baxılmasının qurtardığı elan edildikdən sonra heç kəs məhkəmə iclasında araşdırılmamış hallara və sübutlara istinad etməyə haqlı deyildir (MPM, m.209.3). İşdə iştirak edən şəxslərlə bağlı prosessual qanunvericilikdə nəzərdə tutulan müddətlərə başqa misal kimi MPM-in 273-cü maddəsində təsbit olunmuş müddəanı göstərmək olar: “İşdə iştirak edən şəxslər və nümayəndələr protokolla tanış olmağa haqlıdırlar və onun imzalandığı andan 3 gün ərzində onda yol verilmiş yanlışlıqları və ya natamamlığı göstərməklə protokol barədə yazılı qeydlər təqdim edə bilərlər”.

*İkincisi,* prosessual hərəkəti etmək vəzifəsinin zaman hədlərini müəyyən edən prosessual müddətlərə əməl edilməməsinin hüquqi nəticələri: a) məhkəmələr (hakimlər) tərəfindən. Məhkəmələr (hakimlər) tərəfindən bu və ya digər prosessual hərəkəti etmək vəzifəsini icra etmək üçün nəzərdə tutulmuş müddətlərin pozulması (bu müddətlərə əməl edilməməsi) həmin subyektləri bu vəzifədən azad etmir. Prosessual hərəkət istənilən halda yerinə yetirilməlidir. Bununla yanaşı, məhkəmə süründürməçiliyi problem olaraq qalır və bəzən hüquqlarını müdafiə etmək üçün məhkəməyə müraciət edən maraqlı şəxsin mənafeyinə ciddi zərər vurur.

b) işdə iştirak edən şəxslər tərəfindən, məsələn, 223.2-ci maddəsinə müvafiq olaraq cavabdeh müəyyən edilmiş vaxt ərzində qətnaməni icra etməsə, məhkəmə zəruri hesab etdikdə iddiaçının cavabdehdən zəruri xərcləri almaqla, həmin hərəkətləri cavabdehin hesabına etməyə haqlı olmasını qətnamədə göstərə bilər. Həmin hərəkətlər yalnız cavabdeh tərəfindən edilə bilərsə, məhkəmə qətnamənin icra edilmə müddətini qətnamədə göstərir (MPM, m.223.3).

c) prosesin digər iştirakçıları tərəfindən. MPM-in 78.3-cü maddəsinə görə sübut tələb olunan şəxsin həmin sübutu təqdim etmək imkanı olmadıqda və ya onu məhkəmənin müəyyən etdiyi vaxtda təqdim edə bilmədikdə, o, səbəblərini göstərməklə, sorğunu aldıqdan 5 gün müddətində bu barədə məhkəməyə məlumat verməlidir. Tələb olunan sübutu təqdim etmək vəzifəsi məhkəmə

tərəfindən üzrsüz hesab edilən səbəblərə görə yerinə yetirilmədikdə, sübutlar onda olan şəxs iki yüz iyirmi manatadək cərimə olunur (MPM, m.78.4).

Beləliklə, prosessual müddətlərin buraxılması müəyyən hüquqi nəticələr yaradır. Belə ki, qərardan şikayət vermə müddətinin keçməsi ilə o, qanuni qüvvəyə minir və icraya yönəldilir.

**Üçüncü yarımfəsildə** prosessual müddətlərin bərpa edilməsi və uzadılması, onların axımının dayandırılması məsələləri araşdırılır. Burada iddiaçı predmet üzrə qanunvericiliyin inkişaf tarixini, hüquq ədəbiyyatında mövcud olan yanaşmaları, o cümlədən mövcud məhkəmə təcrübəsini müqayisəli təhlil edir.

İddiaçıya görə, prosessual müddətin bərpası məhkəmənin maraqlı şəxslər tərəfindən məhkəmənin üzrlü hesab etdiyi səbəblərə görə prosessual müddətin buraxılması nəticəsində itirilmiş müvafiq prosessual hərəkəti aparmaq hüququnu həqiqi hesab etməsini özündə əks etdirir. Bərpa edilmə barədə müddəalar mülki prosessual qanunla işdə iştirak edən şəxslər və digər proses iştirakçıları tərəfindən prosessual hərəkətlərin aparılması üçün nəzərdə tutulan müddətlərə şamil olunmalıdır. Bununla bağlı MPM-in 133.2-ci maddəsinin qaydalarının tətbiqi zamanı aşağıdakılar nəzərə alınmalıdır: 1) prosessual müddətin bərpası haqqında ərizə yazılı formada verilməlidir. Buraxılmış müddətin bərpası haqqında ərizə, prosessual hərəkətlərin edilməli olduğu məhkəməyə verilir; 2) qanun, işdə iştirak edən şəxsləri müddətin bərpası məsələsi barədə məhkəmə iclasının yeri və vaxtı haqqında xəbərdar etməyi məhkəməyə bir vəzifə olaraq həvalə edir; 3) işdə iştirak edən şəxslər müddətin bərpası və yaxud ona mane olmaq məqsədilə vəsatət vermək, izahat vermək və s. hüququna malikdirlər. Lakin onların gəlməməsi, müddətin bərpası və yaxud ondan imtina barədə məsələnin məhkəmə tərəfindən həllinə maneçilik törətmir.

İddiaçının fikrincə, prosessual müddətin uzadılması prosessual hərəkətlərin aparılması üçün təyin edilmiş müddət üzrlü səbəblərdən ötürüldükdə məhkəmə tərəfindən həmin prosessual hərəkətin aparılması üçün yeni müddətin təyin edilməsini özündə əks etdirir. Uzadılma barədə müddəalar işdə iştirak edən şəxslər və ya prosesin digər iştirakçıları tərəfindən prosessual hərəkətlərin aparılması üçün məhkəmə tərəfindən təyin edilən müddətlərə şamil olunur. İddiaçı bununla bağlı MPM-in 132-ci maddəsini təhlil edərkən aşağıdakı hallara diqqət yetirmək lazım olduğunu qeyd edir: 1) burada söhbət yalnız məhkəmə tərəfindən təyin edilən prosessual müddətlərdən gedir; 2) məhkəmənin qanunla müəyyən edilən prosessual müddətləri uzatmaq hüququ yoxdur.

İddiaçıya görə, prosessual müddətlərin axımının dayandırılması iş üzrə icraat dayandırıldığı halda belə dayandırılma ərzində prosessual qanunla müəyyən olunan müddətin axımının müvəqqəti xitam edilməsi başa düşülür. Dayandırılma müddəti prosessual müddətin axımı hesablanarkən nəzərə alınmır. Bu zaman prosessual müddətin axımının dayandırılmasının başlanğıc anı iş üzrə icraatın dayandırılması əsası kimi çıxış edən halların yaranması anı, bitmə anı isə iş üzrə icraatın yenilənməsi anı, daha dəqiqi məhkəmə tərəfindən iş üzrə icraatın yenilənməsi barədə müvafiq prosessual aktın (bir qayda olaraq qərardadın) qəbul edildiyi anla üst-üstə düşür. Prosessual müddətlərin axımını dayandırılması ilə bağlı MPM-in 131.1-ci maddəsini təhlil edən iddiaçı aşağıdakı nəticəyə gəlir: 1) iş üzrə icraatın dayandırılması aşağıdakı hallarda tətbiq edilir: a) məhkəmənin üzərinə bir vəzifə olaraq qoyulduğu hallarda; b) məhkəmənin iş üzrə icraatı dayandırmaq hüququnu reallaşdırdığı hallarda. 2) bu maddənin tələbinə görə, iş üzrə icraatın dayandırılması ilə prosessual müddətin axımının dayanması imperativ olaraq müəyyən edilir. 3) bütün müddətlərin axımı, iş üzrə icraatın dayandırılması üçün əsas olan və MPM-in 254-cü və 255-ci maddələrində göstərilmiş hallardan hər hansı birinin yaranması anı ilə dayandırılır.

Prosessual müddətin axımı, iş üzrə icraatın dayandırıldığı bütün dövr ərzində dayandırılır. Burada aşağıdakıları nəzərə almaq lazımdır: 1) elə bir hal mümkün deyildir ki, iş üzrə icraatın dayandırıldığı müddət keçsin, lakin prosessual müddətin axımı hələ dayandırılmamış olsun; 2) əgər iş üzrə icraatın dayandırılması MPM-in 256-cı maddəsində göstərilmiş müddətlərin bitməsinə qədər təxirə salınmışsa, bu halda müvafiq olaraq həmin dövr ərzində prosessual müddətin axımı da dayandırılır.

**Dördüncü yarımfəsildə** ümumi və inzibati-iqtisadi məhkəmələrdə mülki məhkəmə icraatının başa çatmasının nəzəri məsələləri təhlil edilir. Tarixi yanaşma kimi tədqiqat metodundan istifadə edən iddiaçı, mülki məhkəmə icraatının başa çatdırılması müddəasının lehinə aşağıdakı əsasların olduğunu qeyd edir: prosessual müddətlər institutu tərəflərin maddi hüquq münasibətlərinin sabitliyini, mülki və iqtisadi dövriyyənin stabilliyini yalnız o halda təmin edir ki, prosessual qanunda iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə aktlarına baxılması üçün kəsilən (yəni bərpa edilə bilməyən) prosessual müddətlər müəyyən edilsin. Məhz bu müddəanın düzgün və əsaslı hesab edilməsi müasir hüququ tətbiqetmə praktikası üçün aktual olan bir sıra problemlərin həlli üzrə yanaşmalar irəli sürməyə imkan verir: birincisi, Avropa İnsan Hüquqları Məhkəməsinə verilən şikayətin qəbul edilmə şərtlərindən (meyarlarından) biri kimi "bütün daxili hüquq müdafiə vasitələrinin nə vaxt tükəndiyini" müəyyən etmək; ikincisi, "işin ədalətli araşdırılması prinsipi"nin tərkib hissəsi kimi "hüquqi müəyyənlik prinsipi"nə əməl olunmasını təmin etmək; üçüncüsü, Avropa Konvensiyasının

"işə ağlabatan müddətdə baxılması" ilə bağlı tələbləri və qüvvədə olan qanunvericilikdə təsbit edilmiş "mülki işlərə düzgün və vaxtında baxılması və həll edilməsi" müddəası arasında qarşılıqlı nisbəti müəyyən etmək.

İddiaçı hesab edir ki, "ağlabatan müddət ərzində məhkəmə araşdırması" barədə qaydalar ilə qüvvədə olan prosessual qanunvericilikdə təsbit olunmuş vəzifələrin qarşılıqlı nisbətinin müəyyən edilməsi Avropa Konvensiyasının müddəalarının şərhi baxımından mühüm əhəmiyyət kəsb edir. Belə vəzifələrə "mülki işlərə vaxtında və düzgün baxılması və həll edilməsi" və "qanunla müəyyən edilmiş müddətdə məhkəmə baxışı" kimi vəzifələri aid etmək olar.

İddiaçının fikrincə, məhkəmə aktlarına yenidən baxılması üzrə icraatın başlanılması müddətlərinin müəyyən edilməsi tərəflərin maddi hüquq münasibətlərinin möhkəmliyini, mülki və iqtisadi dövriyyənin stabilliyini, prosessual hərəkətlərin aparılmasının operativliyini təmin edir, prosessual hüquq münasibətlərinə müəyyənlik verir. Prosessual qanunvericiliyin müddəalarının beynəlxalq hüququn hamılıqla qəbul olunmuş müddəalarına uyğunlaşdırmaq cəhdləri qanunvericini məhkəmə aktlarına yenidən baxılmasının zaman hədlərinin müəyyənləşdirilməsini zəruri etmişdir.

"Ağlabatan müddət" anlayışının məhkəmə işinin başlanmasından onun bütün məhkəmə instansiyalarında baxılıb həll edilməsi və həmin iş üzrə qəbul edilmiş məhkəmə aktının icrasınadək bütün prosessual müddətlərin məcmusu kimi xarakterizə edilməsi belə nəticəyə gəlməyə imkan verir ki, mülki işlərə "vaxtında" baxılması və həll edilməsi və "qanunla müəyyən edilmiş müddətdə" məhkəmə baxışı terminləri arasında mütləq bağlılıq yoxdur. Hətta hər bir məhkəmə instansiyasında işə baxılması və həmin iş üzrə qəbul edilmiş yekun qərarın icrası müddəti barədə qaydalara əməl olunsa belə, bu cür müddətlərin ümumi məcmusu sadə toplama nəticəsində müəyyən ediləndən çox ola bilər. İş üzrə icraat dəfələrlə təxirə salına, dayandırıla, qərar bir neçə dəfə ləğv edilə, iş isə yenidən baxılması üçün qaytarıla, məhkəmə aktının icrası prosesində bu və ya digər maneələr meydana çıxa bilər.

Ümumi və inzibati-iqtisadi məhkəmələrin işinin qiymətləndirilməsi meyarlarından biri kimi, hər bir məhkəmə instansiyasında işə baxılması müddətlərinə əməl edilməsi çıxış etməlidir. Hüququ tətbiqetmə praktikasında "ağlabatan müddət" anlayışına Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən verilən "hər bir konkret işə baxılmasının ümumi davametmə müddəti – işin başlanıldığı andan həmin iş üzrə yekun məhkəmə aktının qəbul və icra edildiyi anadək" təfsiri nəzərə alınmalıdır.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.



**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**


1. Prosessual müddətlərin buraxılması və onun nəticələri // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, Bakı, 2009, № 2, s. 71-77.
2. Prosessual müddətlərin hesablanması qaydaları. Prosessual müddətlərin başlanmsı və onların axımının başa çatması // Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2009, № 3 (19), s. 224-229.
3. Ümumi məhkəmələrdə mülki məhkəmə icraatının başa çatması problemləri / Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2009, № 4 (20), s. 259-261.
4. Prosessual müddətlər institutunun əhəmiyyəti / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, Bakı, 2009, № 4, s. 91-96.
5. Mülki-prosessual hüquqda müddətin anlayışı və əhəmiyyəti // Qanun jurnalı, 2009, № 05 (181), s. 122-126.
6. Место процессуальных сроков в системе юридических фактов // Юриспруденция теория и практика, Киев, 2011, № 2(76), s. 28-33.
7. Mülki prosessual hüquq elmində prosessual müddətlər institutunun nəzəri məsələləri // Ulu Öndərin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları" adlı beynəlxalq konfransın materialları, II hissə, Bakı, 2011, s. 210-212.
8. Azərbaycan Respublikası Mülki prosessual Məcəlləsinin 172-ci maddəsinin məhkəmələr tərəfindən tətbiqi məsələləri // "Hüquq elminin müasir problemləri" mövzusunda II Respublika elmi-nəzəri konfransın materialları (29-30 mart), Bakı, 2012, s. 154-156.
9. Mülki məhkəmə icraatının başa çatmasının nəzəri məsələləri // "Azərbaycanda hüquqi dövlət quruculuğu və qanunçuluq-2020: gələcəyə baxış" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları (11-12 iyun), Bakı, 2013, s. 207-210.
10. İnqilabaqədərki mülki-prosessual qanunvericilikdə prosessual müddətlərin bərpa edilməsi və uzadılması məsələləri // "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda IV Respublika elmi-nəzəri konfransın materialları (6-7 may), Bakı, 2014, s. 184-186.
11. Ədalət mühakiməsinin həyata keçirilməsində mülki prosessual müddətlərin rolu // Nəqliyyat hüququ, 2017, № 2, s. 14-21.

## РЕЗЮМЕ

Представленная Гамидой Фазиль кызы Гулиевой диссертация на соискание ученой степени доктора философии по праву по специальности 5615.01 - «Гражданский процесс» на тему «Сроки в гражданском процессуальном праве (проблемы теории и практики)» являясь самостоятельным, творческим и завершенным исследовательским трудом, отражая совершенно новые научные положения, имеет большое значение в научном анализе теоретических и практических аспектов института сроков в гражданском процессуальном праве. Диссертационная работа основывается на сравнительный анализ законодательства и судебной практики различных государств, включая Азербайджанскую Республику, в том числе существующих в правовой литературе разногласии.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы исследования, определяются цели и задачи исследования, ее методологические и теоретические основы, объясняются научная новизна, представленные к защите новые научные положения и практическое значение работы, дается информация об апробации результатов исследования и структуре исследовании.

Первая глава исследования называется «Теоретические основы института процессуальных сроков в гражданском процессуальном праве» и состоит из двух подглав. В данной главе исследуется понятие и значение процессуальных сроков в гражданском процессуальном праве, определяется место процессуальных сроков в системе юридических фактов.

Состоящая из двух подглав, вторая глава диссертационной работы называется «Классификация процессуальных сроков». В этой главе исследуются критерии классификации процессуальных сроков в науке гражданского процессуального права, анализируются виды процессуальных сроков на основании гражданского процессуального законодательства.

Третья глава диссертационной работы называется «Исчисление процессуальных сроков, теоретические и практические аспекты пропуска и восстановления сроков» и состоит из четырех подглав. В этой главе исследуются вопросы исчисления процессуальных сроков и окончание их истекания, пропуск процессуальных сроков и его последствия, анализируются вопросы восстановления и продление процессуальных сроков, приостановление их течения, а также теоретические вопросы окончания гражданского судопроизводства в общих и административно-экономических судах.

В заключении отмечены связанные с исследованием важнейшие выводы и предложения, выражено их теоретико-практическое значение для внутригосударственной нормативной правовой системы.





## SUMMARY

Hamida Fazil Guliyeva's dissertation work presented for attaining the degree of PhD in the specialization 5615.01 – "Civil process" called "Terms in civil procedural law (problems of theory and practice)" being an independent, creative and completed work, containing brand new provisions, is of paramount importance in the scientific analysis of the theoretical and practical aspects of the institution of terms in civil procedural law. The dissertation work is formed on the basis of comparative analysis of diverse points of views existing in the legal literature, on legislation and judicial practice of different countries including Azerbaijan.

The dissertation work contains introduction, three chapters, conclusion and bibliography.

In the introduction, the relevance of the research topic is substantiated, the goals and objectives of the study, its methodological and theoretical bases are determined, scientific novelty, new scientific positions presented to the defence and practical significance of the work are explained, information on approbation of research results and research structure is given.

The first chapter is titled "Theoretical foundations of the institute of procedural terms in civil procedural law" and contained two sub-chapters. In this chapter, the concept and meaning of procedural terms in civil procedural law are explored and the place of procedural terms in the system of legal facts is determined.

Consisting of two sub-chapters, the second chapter of the thesis is titled "Classification of procedural terms". This chapter examines the criteria for classifying procedural terms in the science of civil procedural law, analyzes the types of procedural terms based on the civil procedural law.

The third chapter of the dissertation work is titled "Calculation of procedural terms, theoretical and practical aspects of passing and restoring terms" and is comprised of four sub-chapters. This chapter examines the issues of calculating procedural terms and ending their expiration, missing procedural terms and its consequences, analyzes the issues of restoration and extension of procedural terms, the suspension of their flow, as well as the theoretical issues of ending civil proceedings in general and administrative economic courts.

In conclusion, the most important results and proposals related to the study were noted, including their theoretical and practical role for the international and domestic legislative legal system.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГАМИДА ФАЗИЛЬ кызы ГУЛИЕВА**

# СРОКИ В ГРАЖДАНСКОМ ПРОЦЕССУАЛЬНОМ ПРАВЕ (ПРОБЛЕМЫ ТЕОРИИ И ПРАКТИКИ)

**Специальность: 5615.01- «Гражданский процесс»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**БАКУ - 2017**